# Səməd Vurğunun "Həyat fəlsəfəsi" şeiri: İnsanın duyum hikməti...



Allahverdi Eminov

**Müəllifdən:** Son on illərdir milli ədəbiyyatımızın Sovet dövrünə qarşı bəzi yaradıcı ziyalılarımız çamur atmaqla məşğuldur, səbəb nədir? Çox götür - qoydan sonra təxmini o qənaətə gəlirsən ki, on illərlə poeziyada, nəsrdə, dramaturgiyada, hətta ədəbi tənqiddə boş - bekar vurnuxanlar özlərini ədəbiyyat cəbhəsində "şikəst" əsgər kimi heç nəyə yaramayıb, adı ordu siyahısına düşənlər kimi aparanlar imzaları naminə nihilist xəstəliyinə tutulmuşlardır! Bu da bir tərəfə: kəskin desəm - fiziki xəstələrdir, içindən ağrıyırlar ki, mən 20-30 il (və daha çox) ərzində poeziyada, yaxud nəsrdə onlarla şeir kitabları çap etdirdi (bu, yüzlərlə şeir deməkdir), müxtəlif zövqlü oxucular nəsli qəbul etmədi. Əgər bu cür ədalətli qərara gəlmişlərsə, onların qəbahətlərini bağışlamağa dəyər. Lakin belə düşünməyənlər istənilən qədərdir. Maraqlısı odur ki, "çamurşünaslar" diriləri yox, dünyalarını dəyişmiş, on illərlə poeziyamızı hətta xarici ədəbi cəbhələrdə təmsil edən, şəxsiyyət etibarı ilə yüksək səviyyədə duran, xeyirxah işlər görən simaların unikal əsərlərinə girişirlər. Anlamaq istəmirlər ki, əgər müsəlmandırsa, islam dinində təmsil olunursa... dünyasını dəyişən insanın ruhunu sakit buraxarlar, özləri də axirət dünyasının "qonağı" olacaqdır: geci - tezi vardır... Bu bəşəri hissi unutmaq bu qədər psixi ovqatdır? Belə xislətli intellektli, savadlı, qələmi əlində olanlar artıq klassikləşmiş S.Vurğun, R.Rza, S.Rüstəm, M.Rahim, O.Sarıvəlli, B.Vahabzadə, M.Araz və başqa şairlərimizə "ilişir"lər, bələləri suларda qırmaqda tərpənən soğulcanı udan köpək cinsli balıqlara bənzədərdim. Nə yazırsan öz işindir, amma bu mərhum şairləri oxuya-oxuya şair olmusan (bəli, ilhamın, istedadın gücü ilə yox, mütaliənin zəhməti ilə yazanları nəzərdə tuturam), indi isə bəyənmirsən. Qoy, bu nihilizmin öz içində qalsın, bir yaraya dönsün - bunu da sizlərə rəva görməzdim, çünki insansız, validеynsiz, dostsuz, rəfiqsiz, haçansa sevmisiz... Lakin onların poeziyası ilə yanaşı şəxsiyyətlərinə böhtan atırsız (Vaxtilə yazıçı Əkrəm Əylisli bir müsahibəsində mərhum Süleyman Rüstəmi "cüvəllağı" adlandırmışdı. Bəs, Ə.Əylislinin özü kimdir?) Bu kişilikdən deyil.

Mən müxtəlif illərdə S.Vurğun, R.Rza, S.Rüstəm şeirinə dodaq büzənlərə, öz ləyaqətini gözləməyənlərə qəzet və jurnal səhifələrində kəskin cavab vermişəm imkanım daxilində... Belə şairlərimizdən Səməd Vurğun, S.Rüstəm və Rəsul Rza poeziyası haqqında düşüncələrimi müəyyən fasilələrlə oxuculara çatdırmaq fikrindəyəm. Səməd Vurğun poeziyasının poetikasına baş vuranda bütöv bir həyatın mövcud və inkişafı fəlsəfəsinə, insan idrakının alt qatına varmamaq olmur. İnsanın duyum məntiqini dərk etməmək mümkünsüzləşir. Və bu bəşəri hissi şairin "Həyat fəlsəfəsi" şeiri piçıldayır.

"Həyat fəlsəfəsi" S.Vurğunun otuz yaşına çatmamış yazdığı bir şeirdir, o dövr üçün bəlkə də müdrik sayılmayan ömrün mərhələsiydi. Bolşevik sistemindən əvvəl doğulanlar yeni idealogiyada bərkinməkdə idilər. Qələm sahibləri imkanları daxilində yeni quruluşun təntənəsini şərtləndirirdilər. Bu məsələ barədə təfərrüata varmağa ehtiyac duymuram. Lakin bir suala cavab axtarmaq şair kimi S.Vurğunu da düşündürürdü və "həyat" anlayışından əvvəl "dünya" məfhumu dayanırdı. Həyat dünyadan doğur, insan meydana gəlir, məlum Adəm və Həvva - Yer üzündəki bütün insanların əcdadı! Bu cütlər Xeyir və Şəri dərk etməliydi, bu isə onlara qismət deyildi, bunun üçün İblis insan libasına girib Həvvanı yoldan çıxartdı.



Görünür, ilk insanın yaranışında İblisin əli olduğu üçündür - insanlar ya Xeyir, ya da Şər kompleksini bu gün də çiyinlərində daşıyır. Təbii ki, təkamülün hansısa bir epoxasında insan həyatının real və potensial varlığının nədən ibarət olduğunu imkan və gerçəklik vasitəsilə anladı. Bu iki anlayış özüyə elə bir davranış tərzi gətirdi: Mən filan şeyə nail olmalıyam - imkansızlığını fikirləşmədi. Hətta fərd - o maddi və mənəvi imkanlarını da nəzərə almadı, çünki bunlar insan şüurundan asılı deyildi, obyektiv xarakter daşıyırdı və daha çox bioloji, sosial təbiətindən irəli gələn imkanlara üstünlük qazandırırdı. Mənəvi imkanlara gəldikdə isə bu proses maddiyyatından sonra formalaşdı, çün şüurla bağlı idi. Filosoflar maddi imkanları obyektivin, mənəvi imkanları subyektivin hesabına yazmışlar. Eyni zamanda biri digərini tamamlayır və şərtləndirir. Bunu fars şairi Nasir Xosrov (1004-1088) poetik səsləndirmişdir.

**Yeməyə, yatmağa heyvan can atar,**
**Bilikli insana söylə, kim batar?**

İnsan ən ali şüura malikdir, kosmik sistemin bir elementidir və mexaniki, fiziki və kimyəvi xassələrin müəyyən qiymətlərinə uyğunlaşmışdır, lakin insan surətli inkişafa yeri gələndə təsir qüvvəsinin zəifliyi ucbatından lazımi cavabı verməkdə acizləşir, bu isə onun davranış stixiyasında mənfi fəsadlar yaradır. Nə qədər ki əcdadlarımız "xalis" təbiət mühitində yaşayırdı, təbiətin ayrılmaz hissəsiydi, onların bioloji varlığı nisbətən təhlükəsizdi, mühit "doğma" idi. Lakin əsrlər ötdükcə, cəmiyyət inkişaf etdikcə insan "ikinci təbiət"ə adladı. Beləliklə, insan ona xas yüksək əxlaqi keyfiyyətlərindən uzaqlaşdı, hərisləşdi, nəfsini cilovlamaqda acizləşdi. İnsan qanını axıtmaqdan çəkinmədi. O, anladı ki, ictimai varlıqdır öz mənşəyini iki qaynaqdan alır, təbiətdən və cəmiyyətdən. Və iki dünyada: Təbiət və Cəmiyyət məkanlarında yaşayır, hər ikisinin öz qanunları mövcuddur, lakin insan o halda harmoniyanı biqərar edir - təbiətlə dil tapsın, ona qarşı sərt olmasın, onun "qılığına" girsin. Varlığa - sosial mühitə insan toplusu kimi yanaşmasın. Cəmiyyətlə münasibətləri qırmağa ehtiyac qalmamalıdır, zorakı münasibətlərə rəvac verəndə tarazlıq əyilir. İnsan ona çalışır ki, harmoniyanı idraka istiqamətləndirsin, hissi orqanlar həyatı düzgün başa düşsün - anlasın. Belə halda real xarici aləmlə - bütövlükdə kainatla insanın - ruhi, iç aləminin bir-birilə bağlılığı, bir-birinə təsirliliyi də idrak edir və belə nida səslənir: İnsan, özünü dərk et! Bu özünüdərkdən insanın öz həyat fəlsəfəsi meydana çıxır. Müşahidələrə, elmi nəticələrə əsaslansaq həyata yanaşmada üç qrup - xarakter insanlar sıralanmışdır və sonuncu bizi maraqlandırır ki, beləsi sosial qanunlarla, normalarla öz həyat tərzi və mənəvi aləmi arasında harmoniya yaradır. Çox aydın başa düşür ki, belə yanaşma onların sakit, təmənnasız, təhlükəsiz həyat tərzini təmin edir. Şübhəsiz, bu gedişdə insanın duyğuları, təəssüratları böyük rol oynayır və bələləri seçilir, onların təxəyyülü Dünyanı, Zamanı və Məkanı birləşdirən Həyatı fərqli şəkildə dərk edir. Onların Dünya - Həyat haqqında fikirləri, təəssüratları ruhuna, hisslərinə təsir göstərən poetik dillə ifadəsini tapır, bunlar şairlərdir. Şairlər obrazlarla düşünür, onlar üçün Dünyanın hər bir təzahürü, tərz - davranışı daxili aləmilə birləşəndə, poetik vəhdətdə olanda Həyat bir obraza çevrilir. Şairlər yaradıcıdır ki, yaşadığı dünyanı yenidən yaradır. Konkret desək, şair yaşadığı həyatı bir insan - fərd nəzərində görür, cəmiyyətlə insan arasında əqlin sezmədiyi bağlılığı, qarşılıqlı təsiri duyur və aşkar edir. Poeziya elə qüdrətli vasitədir ki, bu mübhəm sirr şairin özünə də mücərrəddir, bircə Allahdan savayı. Şair yeri gələndə şər, faciə, ölüm həqiqətlərinə nüfuz edir. Öz təsirini bəzən elə sahələrə yayır ki, hətta insan zəkası aciz qalır. Dünyanı təmənnasız görür, həyatdan isə heç nə ummur, maddi sərvət belə düşündürmür, yalnız öz poetik hissləriIə ona hakimdir. Şair dünyanı bəşəriləşdirməyə, daxili hissləriylə təbiətin cansız əşyalarını "danışdırmağa" can atır. Təbii məqama gəldiyimizi söyləyə bilərik. Səməd Vurğunun şeirində ilk misrasını "Quşlar qatar-qatar ellərdən keçər"lə başlaması təsadüfi görünməsin. Quşlar sərhəd bilməyən azad canlıdır, bəşər nəsli də "nəsil-nəsil dünyadan köçər", insanlıq gah zəhər, gah şərbət içər" deməklə Dünyanın mütləq dəyişməz qanunlarını dişə vurur. Bununla bərabər, Kainat sirdir, insan idrakı acizdir sirri açmaqda:

**Əzəldən belədir, hökmün, zamanın,**
**Duyumlu bir sirri var asimanın!**

Burada poeziya elmə "məğlub" olardı, şairin proqnozları özünü doğrultmaya bilərdi. Lakin Səməd Vurğun elmin labirintinə yaxın durmur, onu böyük hərflə "İnsan" anlayışı maraqlandırır, hansı ki Adəm və Həvvadan törəyib təkamülün yolu ilə XX əsrə çatan, özünə də möcüzəli görünən Şəxs, öncə fərddirmi, şəxsiyyətdirmi. Şair "fərd" sözünü işlətmir, amma çox şeyi gözləyir, ona görə ki, bu məfhum konkret insanın bölünməzliyini, bütövlüyünü, tamlığını, təkrarsızlığını özündə ehtiva edir, bunlarsa əsasən, fərdin bioloji təbiətindən, genetik irsiyyətindən asılıdır. Təəssüf ki, Zaman - Dövran heç də yaxşılığa doğru irəliləmir, axı, Dövran, onun bir atributu olan Həyat nə üçün yola gətmir. Həyat - bəşər nəsli yoxsa Dövran (Zaman) öldürür. Təbiət heyvanların qismətinə düşəcəkdir.

**Çarxını qurduqca dövranın əli,**
**Bəzən ağlar olur, bəzən gülməli,**
**İnsanın ən böyük eşqi, amalı**
**Bəzən aslan kimi çırpınır darda,**
**Bəzən də qərq olur fırtınalarda...**

S.Vurğun "dövran" anlayışının ilk fəlsəfi konturunu cızır, həyatla onun (dövranın) arasında analogiya axtarır (onlar necə ki bir-birini şərtləndirir) və bu iki faktorda özünü büruzə verir. Biri, ümumi sosial həyat şəraitilə müəyyəndir, bir mənalı hərəkət etmir (ya ağlar, ya gülər), ikincisi, tarixi şəraitdə baş verən reallıqlardır. İnsan əməli, arzusu nə üçün qəfəsə salınmalıdır, niyə hər yeni dövran - sistem insan səadətini cilovlamalıdır? Bu sosial - siyasi yanaşmalar insan səadətinə (xoşbəxtli ) xələl gətirməlidir? Ərəb filosofu İbn > un (1334-1406) bu məsələyə tarixi baxımından yanaşmış və belə bir fikri əsaslandırmış ki, insanlar yalnız cəmiyyətdə həyat sürməklə xoşbəxt ola bilərlər. Təbiət qanunları cəmiyyət qanunlarına bənzəyir: hər şeyin əvvəli və sonu vardır. İnsan həyatı da sonluqdur, o dünyada nə olacağı müəmmalıdır.

*(Ardı var)*